# ELMİ TƏDQİQAT

Beynəlxalq elmi jurnal

# SCIENTIFIC RESEARCH

International scientific journal

www.aem.az

e-ISSN: 2789-6919

AEM

## ELMİ QAYNAQLAR
### TEZİSLƏR TOPLUSU

## COLLECTION OF THESES ON
## SCIENTIFIC RESOURCES

# ELMİ TƏDQİQAT

**Beynəlxalq onlayn elmi jurnal**
**İmpakt Faktor: 0.543**

---

# ELMİ QAYNAQLAR

**Tezislər toplusu**

**Cild: 1 Sayı: 3**

DOI: https://.doi.org/10.36719/2022/01/03

# SCIENTIFIC WORK

**International online scientific journal**
**Impact Factor: 0.543**

---

**Collection of theses**

# SCIENTIFIC RESOURCES

**Volume: 1  Issue: 3**

**Bakı – Baku**
**2022**

Jurnal 01.03.2021-ci ildə
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin reyestrinə
daxil edilmişdir.
Reyestr № 4336

On 01.03.2021, the journal
was included in the register
of Press publications of the
Ministry of Justice of the
Azerbaijan Republic
Registration № 4336

**Redaksiyanın ünvanı:**
Az1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
"Azərbaycan" nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address:**
Az1073, Baku,
Metbuat Avenue, 529,
"Azerbaijan" Publish House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 55 209 59 68
+994 99 807 67 68
+994 12 510 63 99

**e-mail:**
tedqiqat.tezis@aem.az

## Beynəlxalq indekslər / International indices

**e-ISSN: 2789-6910**
**DOI: 10.36719**

## Təsisçi və baş redaktor

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

## Founder and Editor-in-Chief

**Researcher Mubariz HUSEYINOV,** Azerbaijan Science Center / Azerbaijan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

## Redaktor

**Assoc. Prof. Dr. İlham MƏMMƏDLİ**, AMEA Ədəbiyyat İnstitutu / Azərbaycan

## Editor

**Assoc. Prof. Dr. Ilham MAMMADLI,** ANAS Institute of Literature / Azerbaijan

## Redaktor köməkçisi

**Magistrant Aytən XƏLİLOVA,** Azərbaycan Elm Mərkəzi / Azərbaycan

## Assistant editor

**Master Aytan KHALILOVA,** Azerbaijan Science Center / Azerbaijan

## Dillər üzrə redaktorlar

**Prof. Dr. Abbas ABBASOV** / İngilis dili
**Assoc. Prof. Dr.Aytac ZEYNALOVA** / Azərbaycan dili

## Language editors

**Prof. Dr. Abbas ABBASOV** / English language
**Assoc. Prof. Dr.Aytaj ZEYNALOVA** / Azerbaijan language

## Elmi sahələr üzrə redaktorlar

**Assoc. Prof. Dr. Xatirə HÜSEYNOVA /** Humanitar və ictimai elmlər
**Prof. Dr. Şəhla SƏMƏDOVA /** Humanitar və ictimai elmlər
**Assoc. Prof. Dr. Elza ORUCOVA /** Təbiət elmləri
**Dr. Fuad RZAYEV /** Təbiət elmləri
**Dr. Əli ZALOV /** Təbiət elmləri
**Assoc. Prof. Dr. Ramiz ƏHLİMANOV /** Təbiət elmləri
**Prof. Dr. Yaşar MEHRƏLİYEV /** Dəqiq elmlər
**Assoc. Prof. Dr. Şahlar BABAYEV /** Texnika elmləri

## Editors in scientific fields

**Assoc.Prof.Dr. Khatira HUSEYNOVA /** Humanities and social sciences
**Prof. Dr. Shahla SAMADOVA /** Humanities and social sciences
**Assoc. Prof. Dr.Elza ORUJOVA /** Nature sciences
**Dr. Fuad RZAYEV /** Nature sciences
**Dr. Ali ZALOV /** Nature sciences
**Assoc. Prof. Dr. Ramiz AHLIMANOV /** Nature sciences
**Prof. Dr. Yashar MEHRALIYEV /** Exact sciences
**Assoc. Prof. Dr. Shahlar BABAYEV /** Technical sciences

## REDAKSİYA HEYƏTİ

### Humanitar və ictimai elmlər bölməsi

**Prof. Dr. NərgizAXUNDOVA**, AMEATarix İnstitutu / Azərbaycan
**Prof. Dr. Yerden KAJIBEK,** Qazax dili Akademiyası / Qazaxıstan
**Prof. Dr. İrina KREYDİÇ**, Ukrayna Milli Texniki Universitetinin "İqor Sikorski adına Kiyev Politexnik İnstitutu" / Ukrayna
**Prof. Dr. Qəzənfər KAZIMOV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN,** Monqolustan Dövlət Universiteti / Monqolustan
**Prof. Dr. Natalya MİŞİNA**, Odessa Hüquq Akademiyası / Ukrayna
**Prof. Dr. Svetlana KOJIROVA,** L.N.Qumilyov adına Avrasiya Milli Universiteti / Qazaxıstan
**Prof. Dr. Masumə DAEİ**, Təbriz Payame Noor Universiteti / İran İslam Respublikası
**Prof. Dr. Şəhla SƏMƏDOVA,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Yelena ŞIŞKİNA,** Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti / Rusiya
**Prof. Dr. Cihan ÖZDEMİR,** Biləcik Şeyx Edəbali Üniversiteti / Türkiyə
**Prof. Dr. Müseyib İLYASOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Assoc. Prof. Dr. Rəşid CABBAROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Asiman QULİYEV**, Azərbaycan Dövlə İqtisad Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Kulaş MAMİROVA**, Qazaxstan Milli Qadın Pedaqoji Univeristeti / Qazaxıstan
**Assoc. Prof. Dr. Andrey RAGULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Elza ALIŞOVA**, Girne Amerika Universiteti / Türkiyə
**Assoc. Prof. Dr. Dürdanə MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Gülnoz SATTOROVA**, ÖREA Özbək Dili, Ədəbiyyatı və Folkloru İnstitutu / Özbəkistan
**Assoc. Prof. Dr. Rəşad HÜSEYNOV**, Xəzər Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Afərin ABBASOVA**, Qərbi Kaspi Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şəfəq ABDULLAYEVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. İlkin QULUSOY**, Qafqaz Universiteti / Türkiyə
**Assoc. Prof. Dr.Qərənfil QULİYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Dr. Hacer DOLANBAY**, Muş Alparslan Universiteti / Türkiyə
**Dr. Rövşən RAMİZOĞLU**, Selcuk Universiteti / Türkiyə

## Təbiət elmləri bölməsi

**Prof. Dr. Eldar QASIMOV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Onur URAL**, Selcuk Universiteti / Türkiyə
**Prof. Dr. Nikolay BRİKO**, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
**Prof. Dr. Duyğu KILIÇ**, Amasya Universiteti / Türkiyə
**Prof.Dr. İlham ŞAHMURADOV**, AMEA Botanika İnstitutu / Azərbaycan
**Prof. Dr. Zöhrab QARAYEV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Mehmet ÜNLÜ**, Marmara Universiteti / Türkiyə
**Prof. Dr. İlham KAZIMOV**, M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi / Azərbaycan
**Prof. Dr. İbadulla AĞAYEV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. David MENABDE**, Kutaisi Dövlət Unversiteti / Gürcüstan
**Prof. Dr. Elxan NURİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Dr. Asif MANAFOV**, AMEA Zoologiya İnstitutu / Azərbaycan
**Dr. Əli ZALOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Dr. Elçin HÜSEYN**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**Prof. Ali AZQANİ**, Taylerdəki Texas Universiteti / ABŞ
**Dr. Xanzoda YULDAŞEVA**, Tibb İşçilərinin Peşə Kvalifikasiyasının İnkişafı Mərkəzi / Özbəkistan
**Assoc. Prof. Dr. Şəkər MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şikar ƏHMƏDOV**, Əkinçilik Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Mahir HACIYEV**, Heyvandarlıq Elmi-Tedqiqat institutu / Azərbaycan
**Assoc. Prof. Dr. Arif HÜSEYNOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Ramiz ƏHLİMANOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Aytəkin AXUNDOVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Zaman MEMMEDOV**, AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Busra BILAL,** Ali Jinnah Universiteti / Pakistan İslam Respublikası
**Dr. Svetlana QORNOVSKAYA**, Beloserkovsk Milli Aqrar Universiteti / Ukrayna
**Dr. Fuad RZAYEV**, AMEA Zoologiya İnstitutu / Azərbaycan

## Dəqiq elmlər bölməsi

**Prof. Dr. Yusif MƏMMƏDOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Eldar VƏLİYEV,** Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. Yaşar MEHRƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Eldar MƏSİMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Maarif CƏFƏROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Tərxan CƏBRAYILOV**, Memarlıq və İnşaat Universiteti/ Azərbaycan

## Texnika elmləri bölməsi

**Prof. Dr. Cəlaləddin MƏMMƏDOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Prof. Dr. Valeriy LİSENKO**, Ümumrusiya Metroloji Xidmət Elmi-Tədqiqat İnstitutu / Rusiya
**Assoc. Prof. Dr. Şahlar BABAYEV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Univeristeti / Özbəkistan
**Assoc. Prof. Dr. Zəfər CƏFƏROV**, Azərbaycan Dövlət Memarlıq və İnşaat Universiteti / Azərbaycan

## EDITORIAL BOARD

### Humanities and social sciences section

**Prof. Dr. Nargiz AKHUNDOVA**, Institute of History of ANAS / Azerbaijan
**Prof. Dr. Erden KAJIBEK,** Kazakh Language Academy/ Kazakhstan
**Prof. Dr. Irina KREIDYCH**, National Technical University of Ukraine «Igor Sikorsky Kyiv Polytechnic Institute» / Ukraine
**Prof. Dr. Gazanfar KAZIMOV**, Institute of Linguistics of ANAS / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAWA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Uugunbayar MYAGMARSUREN,** Mongolian State University / Mongolia
**Prof. Dr. Natalya MISHINA**, Odessa Law Academy / Ukraine
**Prof. Dr.Svetlana KOJIROVA,** L.N. Gumilyov Eurasian National University/ Kazakhstan
**Prof. Dr. Masuma DAEI**, Payame Noor University of Tabriz / Islamic Republic of Iran
**Prof. Dr. Shahla SAMADOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Yelena SHISHKINA,** Astrakhan State University of Architecture and Construction Engineering / Russia
**Prof. Dr. Cihan OZDEMIR**, Bilecik Sheykh Edebali University / Turkey
**Prof. Dr. Museyib ILYASOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Assoc. Prof. Dr. Rashid JABBAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Asiman GULIYEV**, Azerbaijan State University of Economics / Azerbaijan
**Assoc. Prof. Dr. Kulash MAMIROVA**, Kazakhstan National Woman Pedogogical Institute / Kazakhstan
**Assoc. Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Elza ALISHOVA**, Girne American University / Turkey
**Assoc. Prof. Dr. Durdana MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Gulnoz SATTOROVA**, ASRU Uzbek Language, Institute of Literatureand Folklore/ Uzbekistan
**Assoc. Prof. Dr. Rashad HUSEYNOV**, Khazar University / Azerbaijan
**Assoc. Prof. Dr. Afarin ABBASOVA,** Western Caspian University / Azerbaijan
**Assoc. Prof. Dr. Shefeg ABDULLAYEVA**, Azerbaijan Universty of Language / Azerbaijan
**Assoc. Prof. Dr. İlkin GULUSOY,** Kafkas University / Turkey
**Assoc. Prof. Dr.Garanfil GULIYEVA,** Baku State University / Azerbaijan
**Dr. Hajer DOLANBAY**, Mush Alparslan University / Turkey
**Dr. Rovshan RAMIZOGLU**, Seljuk University / Turkey

### Natural sciences section

**Prof. Dr. Eldar GASIMOV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Onur URAL**, Seljuk University / Turkey
**Prof. Dr. Nikolai BRICO**, First Moscow State Medical University named after I.M.Sechenov / Russia
**Prof. Dr. Duygu KILIC**, Amasya University / Turkey
**Prof.Dr. Ilham SHAHMURADOV**, Institute of Botany of ANAS / Azerbaijan
**Prof. Dr. Zohrab GARAYEV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Mehmet UNLU**, Marmara University / Turkey
**Prof. Dr. Ilham KAZIMOV**, Scientific Surgery Center named after M.Topchubashov / Azerbaijan
**Prof. Dr. Ibadulla AGAYEV**, Azerbaijan Medical University / Azerbaijan

**Prof. Dr. David MENABDE**, Kutaisi State University / Georgia
**Prof. Dr. Elkhan NURIYEV**, Baku State University / Azerbaijan
**Dr. Asif MANAFOV**, Institute of Zoology of ANAS / Azerbaijan
**Dr. Ali ZALOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Dr. Elchin HUSEYN**, Azerbaijan State University of Oil and Industry / Azerbaijan
**Prof. Ali AZGANY**, University of Texas at Tyler / USA
**Dr. Khanzoda YULDASHEVA**, Center for Professional Development of Medical Workers / Uzbekistan
**Assoc. Prof. Dr. Shakar MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Shikar AHMADOV**, Agricultural Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Mahir HAJIYEV**, Cattle-breeding Scientific research institute / Azerbaijan
**Assoc. Prof. Dr. Arif HUSEYNOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Ramiz AHLIMANOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Aytekin AKHUNDOVA**, Baku Slavic University / Azerbaijan
**Assoc. Prof. Dr**. **Zaman MAMMADOV**, Institute of Soil Science and Agro Chemstry of ANAS / Azerbaijan
**Assoc. Prof. Dr. Bushra BILAL,** Ali Jinnah University / İslamic Republic of Pakistan
**Dr. Svetlana GORNOVSKAYA,** Beloserkovsk National Agrarian University / Ukraine
**Dr. Fuad RZAYEV**, Zoology Institute of ANAS / Azerbaijan

## Exact sciences section

**Prof. Dr. Yusif MAMMADOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Yashar MEHRALIYEV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Eldar MASIMOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Maarif JAFAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Tarkhan DJABRAYILOV**, Azerbaijan Architecture and Construction University / Azerbaijan

## Technical sciences section

**Prof. Dr. Jalaladdin MAMMADOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Dr. Valery LISENKO**, All-Russian Metrological Service Research Institute / Russia
**Assoc. Prof. Dr. Shahlar BABAYEV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan
**Assoc. Prof. Dr. Zafar JAFAROV**, Azerbaijan State University of Architecture and Construction / Azerbaijan

ELMİ QAYNAQLAR / Tezislər toplusu / Cild: 1 Sayı: 3 / 8-13
SCIENTIFIC RESOURCES / Collection of theses / Volume: 1 Issue: 3 / 8-13
DOI: https://doi.org/10.36719/2022/01/03

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

## HUMANITIES AND SOCIAL SCIENCES

**Səid Ələkbər oğlu Mirzəyev**
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
magistrant
mirzoyev.said@gmail.com

**Röya Mirtaleh qızı Mirtalıbova**
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
magistrant
roya.mirtalibova@gmail.com

**Etibar Könül oğlu Babayev**
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
magistrant
etibarnbabayev@gmail.com

**Elvira Vüqar qızı Süleymanova**
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
magistrant
suleymanovaelvira613@gmail.com

# “ÖZ MÜQƏDDƏRATINI TƏYİN ETMƏK” HÜQUQU - BEYNƏLXALQ-HÜQUQİ TERMİN KİMİ

***Açar sözlər:*** *xalq, çoxetniklik, ərazi, konvensiya, prinsip*
***Keywords:*** *people, multiethnicity, territory, convention, principle*

ELMİ QAYNAQLAR / Tezislər toplusu / Cild: 1 Sayı: 3 / 8-13
SCIENTIFIC RESOURCES / Collection of theses / Volume: 1 Issue: 3 / 8-13
DOI: https://doi.org/10.36719/2022/01/03

Öz müqəddəratını təyin etmə (ing. self-determination) haqqına görə, dünyada bütün xalqlar özgə və əcnəbi güclərdən asılı olmayaraq, müstəqillik durumları və siyasi vəziyyətlərini azadlıqla təyin edə bilərlər. Bu hüquq beynəlxalq münasibətlərin əsas prinsiplərindən biridir.

Tarix boyu separatçı rejimlər bu və digər vasitələrlə, xarici dəstək faktoru ilə qeyri-qanuni şəkildə nəzarət altında saxladıqları ərazilərdəki fəaliyyətlərini "pərdələmək" üçün hər zaman beynəlxalq hüququn "milli özünütəyinetmə" kimi müstəsna prinsipinə istinad etməyə çalışmışlar. Mənfur qonşumuz Ermənistan tərəfi də illər boyu belə bəhanələrlə çıxış etmişdir ki, guya millətlərin öz müqəddəratını təyin etmək hüququ dövlətin ərazi bütövlüyündən daha öndə dayanır. Beynəlxalq hüquqi nöqteyi-nəzərindən, millətlərin öz müqəddəratını təyin etmək hüququnun bu cür bəsit şərhi ciddi qanuni maneələrə dirənir. Nə hüquq nəzəriyyəsində, nə hansısa dövlətin milli qanunvericiliyində, nə də beynəlxalq hüquqi sənədlərdə göstərilmir ki, "hər bir millət dövlətdir" düsturu hər hansı dövlətin çoxetniklik təcrübəsinə qələbə çala bilər. Daha dəqiqi, öz müqəddəratını təyin etmək prinsipi etnik qruplar üçün, hər şeydən əvvəl, daha geniş ictimai-siyasi prosesdə iştirak etmək hüququ deməkdir. Separatçılar üçün öz müqəddəratını təyin etmək prinsipi hər zaman ümumi dövlətdən qopma kimi destruktiv mahiyyət kəsb etmişdir (Hüseynov, 2000:134).

Ümumiyyətlə, SSRİ dağıldıqdan sonra separatizm postsovet məkanında inanılmaz dərəcədə siyasətin aparıcı amilinə çevrilmiş, bəzi hallarda hətta "milli-azadlıq hərəkatı" kimi qondarma və saxta məzmun almışdır. Bəzən separatçı hərəkatların nəticələrinin təhlili zamanı nəzərə alınmır ki, SSRİ-nin dezinteqrasiyası kifayət qədər kortəbii baş versə də, bunu dünya birliyi etmişdi. Yəni, belə bir konsensusa nail olunmuşdu ki, bu, etnik birliklərin öz müqəddəratını təyin etmək hüququnu həyata keçirmək cəhdlərinin nəticəsi yox, keçmiş

DOI: https://doi.org/10.36719/2022/01/03

ittifaq respublikalarının öz müstəqilliklərini bərpa etmələrinin tarixi qanunauyğun prosesidir. Respublikaların ittifaqdan ayrılması bütün tərəflərin razılığı əsasında baş vermiş, bu halda, etnik icmalar yox, çoxmillətli dövlətlər öz müqəddəratını təyin etmişlər. Bu zaman erməni milləti də öz müqəddəratını təyin edərək müstəqil Ermənistan dövlətini yaratmışdır.

Tarixin müxtəlif dönəmlərində ölkəmizin ərazisində bəzi separatçı qüvvələr əmələ gəlməyə başlamış, lakin qeyd olunmalıdır ki, Ümummilli Lider Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi və qətiyyətli addımları nəticəsində bunun qarşısı alınmış, bununla da dövlətçiliyin vahidliyi, xalqın birliyi təmin olunmuş və xarici, o cümlədən erməni separatçıların bir çox səylərinin qarşısı alınmışdır. Milli özünütəyin - öz müqəddəratını təyinetmə prinsipi hər bir xalqın beynəlxalq hüquqda təsbit olunmuş müstəsna hüququdur və Azərbaycan dövləti də bu hüquqa hörmətlə yanaşır. Lakin beynəlxalq normalara görə, müstəqil dövləti olmayan xalqlar müəyyən hüquqi çərçivədə öz müqəddəratını təyin etmək iddiası ilə çıxış edə bilərlər. Erməni xalqının isə müstəqil dövləti var və bu baxımdan Dağlıq Qarabağdakı separatçı erməni rejiminin belə bir iddia ilə çıxış etməsinin hüquqi və siyasi əsasları yoxdur. Azərbaycan Prezidenti haqlı olaraq bildirir ki, ayrı-ayrı dövlətlərin ərazisində yaşayan ermənilər öz müqəddəratlarını təyin etmək niyyətinə düşsələr, bu halda dünyanın hazırkı siyasi xəritəsindən əsər-əlamət qalmaz. Ermənilər vaxtaşırı beynəlxalq hüququn vacib elementi olan “millətlərin öz müqəddəratını təyin etmək” hüququ ilə manipulyasiya etməyə çalışırlar. Lakin bildirmək istəyirik ki, ermənilər artıq bir millət kimi öz müqəddəratlarını təyin ediblər. Onların müstəqil Ermənistan dövləti vardır. Hər bir millət öz müqəddəratını təyin etmək hüququndan ancaq bir dəfə, həm də konkret ərazi hüdudlarında istifadə edə bilər. Ermənilər artıq bir dəfə müqəddəratlarını əzəli Azərbaycan torpaqlarında “təyin etməklə” Ermənistan Respublikasını yaratmışlar və Qarabağda

ELMİ QAYNAQLAR / Tezislər toplusu / Cild: 1 Sayı: 3 / 8-13
SCIENTIFIC RESOURCES / Collection of theses / Volume: 1 Issue: 3 / 8-13
DOI: https://doi.org/10.36719/2022/01/03

ikinci erməni dövlətinin yaradılmasına heç zaman yol verilməyəcəkdir, bu şüar Azərbaycanın elm və siyasi xadimlərinin öndə şüarıdır.

Beynəlxalq normalara görə, öz müqəddəratını təyinetmənin subyekti milli azlıq deyil, xalq və millətdir. Bu baxımdan dövlət ərazisində yaşayan xalq bütövlükdə müqəddəratını təyin etmək hüququna malikdir. Qarabağda yaşayan ermənilər milli azlıq olduqlarına görə onların müqəddəratlarını təyin etmək hüququ yoxdur. Yalnız xalqın iradəsi ilə dövlət ərazisinin mənsubiyyətinin dəyişdirilməsi prosesi həyata keçirilə bilər. Azərbaycan dövlət müstəqilliyini əldə etməklə xalqın yaşadığı ərazi məsələsini də birmənalı şəkildə həll etmişdir. Həmin ərazi müstəqil Azərbaycan dövlətinin ərazi statusunu almışdır. SSRİ-nin dövlət kimi tənəzzülə uğraması Azərbaycan dövlətinin ərazisinin dəyişdirilməsinə səbəb ola bilməz.

Məlumat üçün qeyd edək ki, “Dövlətlərin müqavilələrə münasibətdə hüquq varisliyi haqqında” 23 avqust 1978-ci il tarixli Vyana Konvensiyasına əsasən, dövlətlərin hüquq varisliyi müqavilələrlə müəyyən edilmiş sərhədlərə toxunmur. Yəni, dövlətlərin müqavilələrlə müəyyən edilmiş sərhədləri hüquq varisliyinin həyata keçirilməsinə əsasən dəyişdirilmir. Sərhədlərin dəyişdirilməsi yalnız dövlətlər arasında yeni müqavilələrin bağlanması yolu ilə həyata keçirilə bilər (Balayev, 2000:251).

ATƏT-in 1995-ci il iyulun 4-8-də Vyanada keçirilmiş sessiyasında qəbul edilmiş sənədlərdə göstərilir ki, öz müqəddəratını təyin etmək məqsəd deyil, vasitədir; kollektiv şəkildə dinc və demokratik inkişaf deməkdir; ayrılmaq hüququ mütləq hüquq demək deyildir; hər bir xalqın öz müqəddəratını təyin etmək hüququ başqa xalqların hüquqları ilə tarazlaşdırılmalıdır; bu prosesdə zorakılıq yolverilməzdir (Qarayev, 1998:59). Yəni, öz müqəddəratını təyin etmək istəyi qətiyyən suveren dövlətin ərazi bütövlüyünün separatçılıqla parçalanması üçün əsas ola bilməz. Bu sənədlərdə həmçinin

ELMİ QAYNAQLAR / Tezislər toplusu / Cild: 1 Sayı: 3 / 8-13
SCIENTIFIC RESOURCES / Collection of theses / Volume: 1 Issue: 3 / 8-13
DOI: https://doi.org/10.36719/2022/01/03

göstərilir ki, öz müqəddəratını təyinetmə prosesi konkret statusa nail olmağa doğru gedə bilər. Qarabağda separatçı erməni rejimi formalaşanadək burada əhalinin böyük əksəriyyətini azərbaycanlılar təşkil etmişlər. Eyni zamanda bu muxtar vilayətdə rusların və digər millətlərin nümayəndələri də yaşamışlar. Belə olan halda həmin ərazidə yalnız ermənilərin öz müqəddəratını təyin etmək kimi iddia ilə çıxış etməsi yolverilməzdir.

Ermənistan rəhbərliyi tez-tez Qarabağda yaşayan ermənilərin öz müqəddaratını təyin etmə haqqından danışır və dünyanı da Qarabağ ermənilərinin bu hüququnu tanımağa çağırır, bu barədə danışarkən 1975-ci ildə qəbul olunmuş Helsinki Yekun Aktına istinad edirlər (Həsənov, 2005:264). Lakin burada da ermənilər öz xislətinə uyğun təhrifə yol verirlər. Məsələ burasındadır ki, Helsinki Yekun Aktında 10 prinsip nəzərdə tutulub. Onlardan biri də “xalqların öz müqəddaratını təyin etmə haqqıdır”. Amma bunun üçün digər prinsiplər də gözlənilməlidir. Sənəddə əks olunan prinsiplər aşağıdakılardır: Suveren bərabərlik prinsipi; Zor işlətməmək prinsipi; Sərhədlərin toxunulmazlığı prinipi; Dövlətlərin ərazi bütövlüyü prinsipi; Mübahisənin dinc yolla həll olunması prinsipi; Bir-birinin daxili işlərinə qarışmamaq prinsipi; İnsan hüquqlarına və əsas azadlıqlara hörmət prinsipi; Bərabərlik və xalqların öz müqəddəratını təyin etmək hüququ prinsipi; Dövlətlər arasında əməkdaşlıq prinsipi; Beynəlxalq müqavilə öhdəliklərinin vicdanla yerinə yetirilməsi prinsipi; Bərabərlik və xalqların öz müqəddəratını təyin etmək hüququ prinsipi.

Gəlin görək “öz müqəddəratını təyin etmə prinsipi”ndən danışan ermənilər digər prinsiplərə riayət edirlərmi? Bu suala birmənalı olar “xeyr” cavabını vermək mümkündür. Əvvəla, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü qəbul etmir. Dağlıq Qarabağ və ətraf rayonların faktiki işğalı belə deməyə əsas verir. Dünya Dağlıq Qarabağın Azərbaycana aid ərazi olduğunu qəbul edir. Bu baxımdan, oradakı qondarma rejimi heç bir ölkə

DOI: https://doi.org/10.36719/2022/01/03

müstəqil dövlət kimi qəbul etmir. Hətta Ermənistan özü belə, qondarma respublikanı tanımır (Balacanov, 1996:163). Həmçinin Azərbaycanın ərazilərini işğal edən Ermənistan faktiki olaraq orada etnik təmizləmə aparıb. Beləliklə, Ermənistan Helsinki Yekun Aktının digər prinsiplərini kobud şəkildə pozub. Bu baxımdan, İrəvanın "öz müqəddaratını təyin etmə" iddiasının heç bir hüquqi qüvvəsi yoxdur.

## Ədəbiyyat

1. Hüseynov, L. (2000). "Beynəlxalq hüquq". Dərslik. Bakı.
2. Balayev, İ. (2000). "Beynəlxalq hüquq". Ümumi hissə. Dərslik. Bakı.
3. Qarayev, M. (1998). "İnsan və xalq hüquqları". Dərslik. Bakı.
4. Həsənov, Ə. (2005). "Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti". Dərslik. Bakı.
5. Balacanov, H. (1996-1999). "Azərbaycan beynəlxalq aləmdə". I-V cildlər. Bakı.

ELMİ QAYNAQLAR / Tezislər toplusu / Cild: 1 Sayı: 3 / 14-17
SCIENTIFIC RESOURCES / Collection of theses / Volume: 1 Issue: 3 / 14-17
DOI: https://doi.org/10.36719/2022/01/03

**Nəzirə Altay qızı Həsənova**
Bakı Dövlət Universiteti
magistrant
nazira.hasannova@gmail.com

# İŞƏGÖTÜRƏN TƏRƏFİNDƏN CƏRİMƏLƏRİN TƏTBİQİNİN BƏZİ MƏSƏLƏLƏRİNƏ DAİR

***Açar sözlər:*** *intizam məsuliyyəti, intizam tənbeh tədbiri, cərimə, əmək haqqından tutulma, əmək və icra intizamı*
***Keywords:*** *disciplinary liability, disciplinary action, fine, reduction of wages, labor and executive discipline*

Hazırda praktikada "cəza" vasitəsi kimi işəgötürənlər tərəfindən tez-tez istifadə olunan üsullardan biri cərimələrin tətbiqi və ya əmək haqqından tutulmalardır. Əslində bu terminlər tamamilə fərqli mənaları ifadə etsələr də, işəgötürənlər tərəfindən əmək və ya icra intizamının kiçik pozuntularına görə (məsələn, işə 10-15 dəqiqə gecikmə) və ya ümumən pozuntu olmadığı halda cərimə adı altında işçilərin əmək haqlarının azaldılması və ya əmək haqqından tutulmaların aparılması kimi mənfi tendensiya mövcuddur. Cərimə termini əmək hüququnda intizam tənbeh tədbirini ifadə edir (1), bu səbəbdən tezisdə qısa şəkildə cərimə kimi əmək haqqından tutulmaların hansı hallarda qanunvericiliyin tələblərinə uyğun olduğunu izah etməyə çalışacağıq.

Əvvəla, qeyd edək ki, Əmək Məcəlləsində intizam tənbeh tədbirlərinin siyahısı əksini tapıb. Bu intizam tənbeh tədbirlərinin siyahısı qətidir və işəgötürən tərəfindən AR ƏM-in 186-cı maddəsinin ikinci hissəsində təsbit olunmamış hər hansı intizam tənbehini tətbiq etməsi yolverilməzdir (Qasımov, 2016:640). Cərimə intizam tənbeh növlərindən biri olduğundan, dolayısı ilə bütün tənbeh növləri üçün müəyyən olunmuş qaydalar cərimənin tətbiq zamanı da nəzərə alınmalıdır. Bura tənbeh verilməzdən öncə işçidən yazılı izahatın alınması (1), bir

ELMİ QAYNAQLAR / Tezislər toplusu / Cild: 1 Sayı: 3 / 14-17
SCIENTIFIC RESOURCES / Collection of theses / Volume: 1 Issue: 3 / 14-17
DOI: https://doi.org/10.36719/2022/01/03

intizam xətasına görə iki və ya daha çox intizam tənbeh tədbirinin tətbiq edilməməsi (1), tənbeh tədbiri verilərkən əmək və icra intizamının pozulmasının xarakterinin və işçinin şəxsiyyətinin, peşəkarlığının nəzərə alınması və s. aiddir.

Qanunverici tərəfindən cərimədən öncə töhmət və şiddətli töhmətin tətbiqi nəzərdə tutulub, baxmayaraq ki, Əmək Məcəlləsində qeyd olunan intizam tənbeh tədbiri növlərinin ardıcıllığına riayət etmək məcburi deyil (3), əgər işçi tərəfindən əmək və icra intizamı pozulursa, işəgötürən tərəfindən ilkin olaraq bu tənbeh növləri tətbiq edilə bilər. Eyni zamanda işçinin peşəkarlığı, şəxsiyyəti, törədilmiş intizam pozunutusunun xarakteri nəzərə alınmaqla intizam tənbeh tədbiri olmayan şifahi və ya yazılı xəbərdarlığın tətbiqi imkanı da nəzərdə tutulmuşdur. Bu intizam tənbeh tədbirinin tətbiq edilməsi üçün ilkin şərt müəssisənin kollektiv müqaviləsində bu halın nəzərdə tutulması, yəni elə kollektiv müqavilənin özündə işəgötürənə əmək və icra intizamının pozulması halında işçinin əmək haqqının dörddə birinə qədər cərimənin çıxılması hüququnun verilməsidir. Deməli, işçiyə verilən cərimənin qanuniliyi yoxlanılarkən bunun müəssisənin kollektiv müqaviləsində nəzərdə tutulub-tutulmadığı müəyyənləşdirilməlidir. İşəgötürən tərəfindən cərimə tənbehi ilə bağlı qərar verilərkən bu amillər yoxlanılmalıdır.

İntizam tənbeh tədbirlərinin tətbiqi işəgötürənin inzibati idarəetmə hüququndan irəli gələn bir səlahiyyətidir. Lakin işəgötürən bu hüquqlarının tətbiqi zamanı sui-istifadəyə yol verməməli və işçilərin hüquqlarını pozmamalıdır. Praktikada yaranan bu məsələ ilə əlaqəli daha bir məqam ondan ibarətdir ki, müəssisənin kollektiv müqaviləsində nəzərdə tutulmasa belə, işçi ilə bağlanan əmək müqaviləsində birbaşa olaraq işçinin cərimə ediləcəyi hallar göstərilir və ya sadəcə işəgötürənin işçini cərimə etmək hüququ qeyd olunur. Bu tipli halların mövcudluğunu qeyri-qanuni hesab edirik, belə ki, əmək hüququnun möhkəmlənmiş belə bir təməl prinsipi var ki, əmək müqavilələrinə işçilərin hüquqlarını qüvvədə olan

ELMİ QAYNAQLAR / Tezislər toplusu / Cild: 1 Sayı: 3 / 14-17
SCIENTIFIC RESOURCES / Collection of theses / Volume: 1 Issue: 3 / 14-17
DOI: https://doi.org/10.36719/2022/01/03

qanunvericiliyə, kollektiv müqaviləyə və sazişə nisbətən məhdudlaşdıran şərtlərin daxil edilməsi yolverilməzdir (1). Eyni zamanda əmək müqaviləsində işçinin vəziyyətini kollektiv müqaviləyə nisbətən ağırlaşdıran normaların tətbiqi yolverilməzdir və qeyri-qanuni hesab edilməlidir.

Türkiyə Cümhuriyyətinin qanunvericiliyində konkret olaraq bu məsələ həllini tapır. Burda müəyyən olunur ki, kollektiv müqavilədə və ya əmək müqaviləsində göstərilən hallar istisna olmaqla, işəgötürən işçiyə əmək haqqının azaldılması ilə bağlı cərimə tətbiq edə bilməz (4).

Burda belə bir maraqlı təcrübə yaradılıb ki, işçinin əmək haqqından tutulmalar, yaxud tətbiq edilən cərimələr işəgötürənin hesabında toplanmır. Hər bir işəgötürən bu pulların iş yerində ayrıca uçotunu aparmağa borcludur. Yığılmış cərimələrin haraya və nə qədər ödəniləcəyinə Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin sədrlik etdiyi və işçilərin nümayəndələrinin də qatıldığı komissiya qərar verir. Bu şuranın kimlərdən ibarət olacağı, necə işləyəcəyi və hansı prinsiplər əsasında çıxarılacaq əsasnamədə göstərilir (4).

Diqqətdə saxlamaq lazımdır ki, intizam məsuliyyəti institutunun mövcudluğu və qanunverici tərəfindən intizam tənbeh tədbirlərinin müəyyən olunmasının məqsədi kimi xidmətlərin lazımi qaydada yerinə yetirilməsi, müəssisədaxili intizam qaydalarının qorunması, bununla müəssisədə istehsalın və göstərilən xidmətin məhsuldarlığı və effektivliyinin təmin edilməsi ümumiləşdirilə bilər (Kuchuk, 2019:58). İşəgötürənə qanunverici tərəfindən intizam tənbeh tədbirlərinin tətbiqi imkanının tanınmasında əsas elə məhz bu prinsiplərin təminidir.

Nəticə olaraq, işəgötürən işçinin əmək haqqında cərimə adı altında tutulmanı sadəcə intizam tənbeh tədbirinin növü kimi və tənbeh tədbirlərinin tətbiq edilməsinə dair qanunvericiliklə müəyyənləşdirilən qaydada apara bilər, əks təqdirdə bu birmənalı olaraq hüquq pozuntusu hesab olunacaqdır.

7DOI: https://doi.org/10.36719/2022/01/03

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Əmək Məcəlləsi. (2018). Bakı: Hüquq Yayın Evi.
2. Qasımov, A.M. (2016). Əmək hüququ: Dərslik. Bakı: Letterpres nəşriyyat evi.
3. Azərbaycan Respublikasının Əmək Məcəlləsinin Elmi-Praktik Kommentariyası. (2018). Prof. A.M.Qasımovun məsul redaktorluğu ilə. Bakı: Hüquq Yayın Evi.
4. https://www.mevzuat.gov.tr/mevzuat
5. Kuchuk, Ch.M. (2019). Disciplinary punishments within the scope of Law No. 657 and applicability of general principles of criminal law and criminal procedure law in disciplinary law, doctoral thesis.

ELMİ QAYNAQLAR / Tezislər toplusu / Cild: 1 Sayı: 3 / 18-23
SCIENTIFIC RESOURCES / Collection of theses / Volume: 1 Issue: 3 / 18-23
7DOI: https://doi.org/10.36719/2022/01/03

# TƏBİƏT ELMLƏRİ

# NATURAL SCIENCES

**Lalə İslah qızı Rüstəmova**
V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu
tibb üzrə fəlsəfə doktoru
lala.rustamova.1967@mail.ru

**Akif İrzaxan oğlu Qurbanov**
V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu
tibb elmləri doktoru
akifgurbanov@mail.ru

**Fəridə Hafiz qızı Heydərova**
V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu
tibb üzrə fəlsəfə doktoru
fheyderova@inbox.ru

**Şeyda Tələt qızı Şıxəliyeva**
V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika
İnstitutubiologiya üzrə fəlsəfə doktoru
sheydashikhaliyeva@gmail.com

**Svetlana Məmməd qızı Fərəcova**
V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu
tibb üzrə fəlsəfə doktoru
lala.rustamova.1967@mail.ru

**Tamilla İsrafil qızı Hacıyeva**
V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu
biologiya üzrə fəlsəfə doktoru
tamila.hajieva@gmail.com

ELMİ QAYNAQLAR / Tezislər toplusu / Cild: 1 Sayı: 3 / 18-23
SCIENTIFIC RESOURCES / Collection of theses / Volume: 1 Issue: 3 / 18-23
7DOI: https://doi.org/10.36719/2022/01/03

# BAKI ŞƏHƏRİNDƏ VAKSİNASİYA FONUNDA COVID-19 İNFEKSİYASI ZAMANI EPİDEMİK PROSESİN GEDİŞ XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *Covid-19, epidemioloji təhlil, epidemioloji proses, vaksinasiya, mövsümilik*

***Keywords:*** *Covid-19, the epidemiological analyse, the epidemic process, vaccination, seasonality*

Yeni koronavirus infeksiyasının (Covid-19) yayılması barədə ilk rəsmi məlumat 31 dekabr 2019-cu ildə verilmişdir. İnfeksiyanın ilkin ocağı Çin Xalq Respublikasının Uhan şəhərində yerləşən balıq bazarı hesab edilirdi.

11 mart 2020-ci ildə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) bu infeksiyanın sürətli və qlobal yayılması ilə əlaqədar Covid-19 pandemiyasının başlandığını elan etmişdir (1).

Koronavirus infeksiyası haqqında dərc olunan məlumatlar əsasən ÜST, Çin Xalq Respublikası və ABŞ-ın xəstəliklərə nəzarət mərkəzləri, həmçinin xəstəliklərə nəzarət üzrə Avropa Mərkəzinin infeksiyanın müalicə və profilaktikasına dair materiallar bazasına əsaslanır (Dong, Mo, Hu, 2020:145; Holshue, 2020:929-936; Minah, Alex, Jue, 2020:967; Wang, 2020:470-473).

Hazırda Covid-19 pandemiyası 200-dən artıq ölkədə qeydə alınmış, 430 milyondan artıq insan bu infeksiyaya yoluxmuş, 6 milyona yaxın insan bu infeksiyadan dünyasını dəyişmişdir. Bu gün ekspertlər Covid-19 infeksiyasının cəmiyyətə vurduğu zərərin miqyasını XX əsrin əvvəllərində qeydə alınmış “ispan” qripinin vurduğu zərərlə müqayisə edirlər. Covid-19-la xəstələnmə üzrə liderlik ABŞ, Braziliya, Hindistan və Rusiyaya məxsusdur.

Covid-19 pandemiyası zamanı epidemik prosesin gedişinin aşağıdakı variantları müzakirə edilməkdədir:

ELMİ QAYNAQLAR / Tezislər toplusu / Cild: 1 Sayı: 3 / 18-23
SCIENTIFIC RESOURCES / Collection of theses / Volume: 1 Issue: 3 / 18-23
7DOI: https://doi.org/10.36719/2022/01/03

– əhatə dairəsinin genişlənməsi ilə aktiv yayılma və daha çox insanın yoluxması;

– yaxın bir neçə ayda epidemiyanın sönməsi;

– konkret yoluxma əraziləri daxilində dalğavarı gediş;

– epidemiyanın məlum yaxın senari üzrə (Çin, İtalyan, ABŞ) inkişafı;

– ərazi, coğrafi, etnik və digər fərqlərdən asılı olan qarışıq modellər.

Covid-19 infeksiyasının abortiv gedişi (Meskina, 2020:202-215; Nikiforov, Suranova, Mironov, Zabozlaev, 2020:48; Nikiforov, Suranova, Chernobrovkina, 2020:87-93; Rassokhin, Samarina, Belyakov, 2020:7-30; Ishsever, Ishsever, Oztan, 2020:13; Krajcar, Stemberger, Surina, 2020:491-500).

Covid-19 infeksiyası zamanı epidemik prosesin qeyd olunan inkişaf variantlarının başvermə intensivliyinə bir sıra amillər – yaş, cins, coğrafi, iqlim, mövsüm amilləri birbaşa və ya dolayı yolla təsir edir. Odur ki, Covid-19-la xəstələnmənin yaş, cins, ərazi və mövsüm xüsusiyyətlərinin təhlili epidemik prosesin gedişinin səciyyələndirilməsi baxımından çox vacibdir.

Tədqiqatın məqsədi Bakı şəhərində vaksinasiyadan əvvəl və vaksinasiya fonunda əhali arasında Covid-19-a görə epidemioloji vəziyyətin qiymətləndirilməsidir.

Bu məqsədlə 2020 - 2021-ci illərin mart-avqust aylarında Bakı şəhərində əhali arasında Covid-19-la xəstələnmənin səviyyəsi ümumi əhali, eləcə də kişilər və qadınlar arasında aylar və mövsüm üzrə müqayisəli təhlil edilmişdir. Tədqiqat işində Bakı şəhərində vaksinasiyadan əvvəl və vaksinasiya fonunda əhali arasında Covid-19-la xəstələnmənin epidemioloji diaqnostikası aparılmış, ümumi əhali (o cümlədən kişilər və qadınlar olmaqla) arasında xəstələnmə səviyyəsi aylar üzrə və mövsümdən asılı olaraq dinamikada araşdırılmışdır (12).

Bakı şəhərində əhali arasında Covid-19-la gündəlik xəstələnmə haqqında məlumat https://koronavirusinfo.az/az rəsmi saytından götürülmüşdür.

**ELMİ QAYNAQLAR / Tezislər toplusu / Cild: 1 Sayı: 3 / 18-23**
**SCIENTIFIC RESOURCES / Collection of theses / Volume: 1 Issue: 3 / 18-23**
**7DOI: https://doi.org/10.36719/2022/01/03**

Keyfiyyət əlamətləri orta qiymət və onun standart xətası, diskret əlamətlər isə xəstələnmə hallarının faizlə (%) və prosantimille (%$_{000}$) ifadə edilmişdir. Keyfiyyət əlamətləri üzrə iki qrupun müqayisəsi $\chi^2$ meyarından istifadə edilməklə aparılmışdır. Alınan fərqlər $p<0,05$ olduqda statistik əhəmiyyətli sayılmışdır.

Covid-19-la xəstələnmə göstəricilərinin statistik işlənməsi diskriminant üsulun tətbiqi ilə MS EXCEL-2019 proqramında aparılmışdır.

Tədqiqatın nəticələrindən aydın olmuşdur ki, vaksinasiyadan əvvəl Bakı şəhərində Covid-19 infeksiyasının epidemik prosesi ikidalğalı gedişə malik olmuşdur. 2021-ci ildə vaksinasiya fonunda Bakı şəhərində Covid-19 infeksiyasının epidemik prosesi qeyri-bərabər gediş xüsusiyyəti ilə səciyyələnmişdir.

Vaksinasiyadan əvvəl Covid-19-la xəstələnmənin maksimal səviyyəsi həm əhali, həm də kişilər və qadınlar arasında payız fəslində, vaksinasiya fonunda isə yaz fəslində müəyyən edilmişdir.

Bakı şəhərində 2020-ci ildə Covid-19-la xəstələnənlər arasında 43,0%-i kişilər, 57,0%-i isə qadınlardır. 2020-ci ildə Bakı şəhərində Covid-19 infeksiyasının epidemik prosesi dalğalı gedişə malik olmaqla, birinci epidemik yüksəliş iyul ayında, ikinci epidemik yüksəliş isə dekabr ayında qeydə alınmışdır. Əhali arasında Covid-19-la xəstələnmə bütün il boyu və hər fəsildə qeydə alınmış, lakin xəstələnmənin maksimal həddi payız fəslinə təsadüf etmişdir. Vaksinasiya fonunda isə müqayisə edilən dövr ərzində epidemik prosesin gedişi qeyri-bərabər olmuş və xəstələnmə səviyyəsinin getdikcə azalması müşahidə olunmuşdur.

7DOI: https://doi.org/10.36719/2022/01/03

## Ədəbiyyat

1. https://www.who.int/news-room
2. Dong, Y., Mo, X., Hu, Y. et al. (2020). Epidemiology of Covid-19 among children in China. Pediatrics, № 1 (6), 145 p.
3. Holshue, M. (2020). First case of 2019 Novel Coronavirus in the United States. N. Engl. J. Med., № 382 (10), p.929-936.
4. Minah, P., Alex, R., Jue T. et al. (2020). A systematik review of Covid-19 epidemiology based on current evidence. J. Clin. Med., № 9(4), 967 p.
5. Wang, C. (2020). A novel coronavirus outbreak of global health concern. Lancet, № 395 (10223), p.470-473.
6. Meskina, E.R. (2020). Predvaritelniy klinoko-epidemiologicheskiy analiz pervikh 1000 sluchaev Covid-19 u detey v Moskovskoy oblastı. Jurnal mikrobiologii, epidemiologii i immunobiologii, № 97(3), s.202-215.
7. Nikiforov, V.V., Suranova, T.G., Mironov, A.Y., Zabozlaev, F.P. (2020). Novaya koronavirusnaya infekchiya (Covid-19): etiologiya, epidemiologiya, klinika, diagnostika, lechenie i profilaktika. Moskva, 48 s.
8. Nikiforov, V.V., Suranova, T.G., Chernobrovkina, T,Y. i dr. (2020). Novaya koronavirusnaya infekchiya (Covid-19): kliniko-epidemiologicheskie aspekti. Arxiv vnutrenney medichini, № 2, s.87-93.
9. Rassokhin, V.V., Samarina, L.V., Belyakov, N.A. i dr. (2020). Epidemiologiya, klinika, diagnostika, ochenka tyajecti zabolevaniya COVİD-19 s uchetom soputctvuyushey patologii. VİCH-infekchiya i immunosupressii, № 2, s.7-30.

DOI: https://doi.org/10.36719/2022/01/03

10. Ishsever, H., Ishsever, T., Oztan, G. (2020). Epidemiology of COVID-19. Journal of Advanced Research in Health Sciences, №.3, p.13.
11. Krajcar, N., Stemberger, L., Surina, A. et al. (2020). Epidemiological and clinical features of Croatian children and adolescents with a PCR – confirmed coronavirus disease 2019: differences between the first and second epidemic Vaves. Croatian Medical Journal, № 61 (6), p.491-500.

ELMİ QAYNAQLAR / Tezislər toplusu / Cild: 1 Sayı: 3 / 24-25
SCIENTIFIC RESOURCES / Collection of theses / Volume: 1 Issue: 3 / 24-25
DOI: https://doi.org/10.36719/2022/01/03

**Süleyman Mahmud oğlu Məmmədov**
V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu
suleyman.mamedov.54@mail.ru

**Nurlanə Musafəddin qızı Atakişiyeva**
V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu
nurlaneatakishiyeva@gmail.com

**Zöhrə Həmid qızı Səfərova**
V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu
safarovazoa45@gmail.com

**Mehriban Akif qızı Talıbzadə**
V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu
mehribantalıbzade@gmail.com

# BAKI ŞƏHƏRİ VƏ ONUN RAYONLARI ÜZRƏ 2021-Cİ İL ÜÇÜN UŞAQLAR ARASINDA COVID-19-LA YOLUXMA İNTENSİVLİYİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

***Açar sözlər:*** *Covid-19, yaş qrup, yoluxma intensivliyi, mövsümi göstərici, əhali sıxlığı*

***Keywords:*** *Covid-19, age group, the intensity of infection, season indicator, population density*

Təqdim etdiyimiz tezisdə Bakı şəhəri və onun 12 rayonu üzrə 0-17 yaş qrupu üzrə Covid-19-la yoluxma intensivliyinin müqayisəli təhlili göstərilmişdir. Tədqiqat işinin məqsədi Bakı şəhərinin 12 rayonu üzrə 0-17 yaş qrupunda aylar üzrə, mövsümi, illik yoluxmanı təhlil etməkdir.

Covid-19 infeksiyasına görə 2021-ci ildə Bakı şəhəri və onun 12 rayonu üzrə 0-17 yaş qrupunda yoluxma səviyyəsinin təhlili aparılmışdır. Beləki, Bakı şəhərinin ümumi əhali sayı 2305000 nəfərdir. Bakı şəhərində 0-17 yaş qrupu arasında ümumi yoluxma 13014 nəfər (0,56%; hər yüz min nəfərə 564

DOI: https://doi.org/10.36719/2022/01/03

nəfər). 0-17 yaş qrupunda yoluxma intensivliyinə görə Bakı şəhərinin 12 rayonu arasında 1-ci yerdə Binəqədi rayonu - 2434 nəfər (2,2%; hər min nəfərə 21 nəfər), 2-ci yerdə Yasamal rayonu - 1747 nəfər (2%; hər min nəfərə 20 nəfər ), 3-cü Xəzər rayonu - 1409 nəfər (1,9%; hər min nəfərə 19 nəfər), 4-cü Sabunçu rayonu - 1389 nəfər (1,8%; hər min nəfərə 18 nəfər), 5-ci Suraxanı rayonu - 1377 nəfər (1,7%; hər min nəfərə 17 nəfər), 6-cı Nəsimi rayonu - 1091 nəfər (1,4%; hər min nəfərə 14 nəfər), 7-ci yerdə Nizami rayonu - 925 nəfər (1,3%; hər min nəfərə 12 nəfər), 8-ci Nərimanov rayonu - 887 nəfər (1,2%; hər min nəfərə 11 nəfər), 9-cu yerdə Xətai-742 nəfər (1,1%; hər min nəfərə 10 nəfər), 10-cu yerdə Səbail rayonu - 460 nəfər (1%; hər min nəfərə 1 nəfər), 11-ci yerdə Qaradağ rayonu - 448 nəfər (0,8%; hər min nəfərə 8 nəfər), 12-ci yerdə Pirallahı - 105 nəfər (0,2%; hər min nəfərə 2 nəfər).

0-17 yaşlı uşaqlar arasında aylar üzrə ən yüksək yoluxma noyabr ayının - 2529 nəfər (20%; hər min nəfərə 20 nəfər) payına düşür. Ən aşağı yoluxma isə mart - 494 nəfər (7,4%; hər min nəfərə 7 nəfər ) ayına təsadüf edir.

0-17 yaşlı uşaqlar arasında mövsümə görə risk vaxtını payız-qış mövsümi təşkil edir. Bakı şəhərinin 12 rayonu üzrə ən yüksək yoluxma Binəqədi rayonuna - 2434 nəfər (2,2%; hər min nəfərə 21 nəfər), ən aşağı yoluxma Pirallahı rayonuna - 105 nəfər (0,2%; hər min nəfərə 2 nəfər) aiddir.

Beləliklə, xəstələnmə göstəriciləri rayonlarda olan əhali sıxlığına görə yüksək və aşağı səviyyələrə ayrılmışdır. Ən yüksək xəstələnmə göstəricisi Binəqədi rayonunda - 2,2%; ən aşağı xəstələnmə göstəricisi Pirallahı rayonunda - 0,2% qeydə alınmışdır.

ELMİ QAYNAQLAR / Tezislər toplusu / Cild: 1 Sayı: 3 / 26-28
SCIENTIFIC RESOURCES / Collection of theses / Volume: 1 Issue: 3 / 26-28
DOI: https://doi.org/10.36719/2022/01/03

**Süleyman Mahmud oğlu Məmmədov**
V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu
suleyman.mamedov.54@mail.ru

**Nurlanə Musafəddin qızı Atakişiyeva**
V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu
nurlaneatakishiyeva@gmail.com

**Zöhrə Həmid qızı Səfərova**
V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu
safarovazoa45@gmail.com

**Mehriban Akif qızı Talıbzadə**
V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu
mehribantalıbzade@gmail.com

# 2021-Cİ İLDƏ BAKI ŞƏHƏRİNİN RAYONLARI ÜZRƏ COVID 19-LA YOLUXMA İNTENSİVLİYİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

***Açar sözlər:*** *Covid-19, yaş qrupu, yoluxma intensivliyi, mövsümi göstərici, əhali sıxlığı*

***Keywords:*** *Covid-19, age group, the intensity of infection, season indicator, population density*

Təqdim olunan işdə dünyada o cümlədən Azərbaycanda qlobal problemə çevrilmiş Covid-19 infeksiyası ilə yoluxma göstəricilərinin Bakı şəhərinin rayonları üzrə müqayisəli təhlilin nəticələri verilib. 2021-ci ildə Bakı şəhərinin 12 rayonu arasında Covid-19 infeksiyasına görə yoluxmanın səviyyəsinin ümumi əhali, cinslər, yaş üzrə təhlili aparılmışdır. Bakı şəhəri üzrə ən yüksək yoluxma göstəricisi - Binəqədi rayonunun, ən aşağı yoluxma- Piarallahı rayonunun payına düşür.

Tədqiqat işinin məqsədi Bakı şəhərinin 12 rayonu üzrə 2021-ci ildə vaksinasiya fonunda ümumi əhali, uşaq və yetkin

DOI: https://doi.org/10.36719/2022/01/03

yaşlı əhali arasında Covid19 infeksiyasının bəzi epidemioloji xüsusiyyətlərinin (yaş, cins, mövsüm, illik dinamika, xəstələnmənin intensiv və ekstensiv göstəriciləri) öyrənilməsi. Tədqiqat işində Bakı şəhərinin 12 rayonunun əhalisi arasında Covid19-la xəstələnmənin epidemioloji diaqnostikası aparılmış, ümumi əhali (kişilər və qadınlar olmaqla) arasında xəstələnmə səviyyəsi aylar üzrə və mövsümi olaraq araşdırılmışdır.

Bakı şəhərinin 12 rayonu arasında Covid19-la gündəlik xəstələnmə haqqında məlumat www:koronavirus.az rəsmi saytından götürülmüşdür. Keyfiyyət əlamətləri orta qiymət və onun standart xətası, diskret əlamətlər isə xəstələnmə hallarının faizlə (%) ifadə edilmişdir.

2021-ci ildə Bakı şəhərinin 12 rayonu üzrə ümumi əhali qrupları - yetkin yaşlı əhali,uşaqlar, kişilər və qadınlar arasında Covid19 infeksiyasına görə yoluxma səviyyəsi təhlil edilərkən xəstələnmənin mütləq göstəricilərindən istifadə edilmişdir. Təhlilə əsasən ən yüksək yoluxma intensivliyi Binəqədi rayonunun payına düşmüşdür. Binəqədi rayonunun ümumi əhəli sayı - 268400 nəfər, qadınlar -133400 nəfər təşkil etdiyi halda, yoluxma ümumi əhali arasında - 24950 nəfər (9,3%; hər min nəfərə 93 nəfər), qadınlar arasında - 13686 nəfər (10,26%; hər min nəfərə 10,3 nəfər) olmuşdur. Yoluxma intensivliyinin ən aşağı olduğu rayon - Pirallahı rayonudur. Pirallahı rayonunun ümumi əhali sayı - 20600 nəfər, qadınlar - 10100 nəfər təşkil edir. Yoluxma ümumi əhali arasında - 1087 nəfər (5,27%; hər min nəfərə 5,3 nəfər), qadınlar arasında - 606 nəfər (56%; hər min nəfərə 6 nəfər) təşkil edir.

Beləliklə, 2021-ci ildə Bakı şəhərinin 12 rayonu üzrə ümumi əhali və müxtəlif əhali qruplarında (yaş, cinslər üzrə) Covid19-la xəstələnmənin illik, mövsimi, aylıq dinamikasının təhlili aparılmişdır. Xəstələnmə göstəricilərinin səviyyəsinə görə bütün rayonlar 3 qrupa ayrılmışdır: yüksək səviyyəli, orta səviyyəli və aşağı səviyyəli. Aşağı xəstələnmə səviyyəsi il ərzində 5000-ə qədər, orta xəstələnmə səviyyəsi 5000-10000, yüksək xəstələnmə səıviyyəsi 10000-dən yuxarı xəstələnmə

halı qeydə alınan rayonlar kimi qruplaşdırılmışdır. Bununla da xəstələnmə səviyyəsinə görə risk qrupuna daxil olan rayonlar müəyyən edlmişdir. Əhali qrupları arasında cinsə görə risk qrupunu qadınlar, mövsümə görə risk vaxtını payız-qış mövsimü təşkil etmişdir.

ELMİ QAYNAQLAR / Tezislər toplusu / Cild: 1 Sayı: 3 / 29-31
SCIENTIFIC RESOURCES / Collection of theses / Volume: 1 Issue: 3 / 29-31
DOI: https://doi.org/10.36719/2022/01/03

**Hüseyn Ceyhun oğlu Kazımzadə**
Naxçıvan Dövlət Universiteti
magistrant
kazimzadehuseyn99@gmail.com

# ƏCZAÇILIQDA İNFORMASİYA TEXNOLOGİYALARININ TƏTBİQİ. TELEFARMASİYA

***Açar sözlər:*** *əczaçılıq, dərman vasitələri, informasiya texnologiyaları, elektron aptek, internet mağaza*

***Keywords:*** *pharmacy, medicines, information techologies, electronical pharmacy, online store*

Hazırda kütləvi kompüterləşmə dövrünü yaşayırıq. Bu şəraitdə insanın işgüzar fəaliyyətini, müəssisənin və təşkilatın idarə olunmasını kompütersiz təsəvvür etmək mümkün deyil. Uçot və nəzarət məsələlərinin həllində, o cümlədən, mühasibat uçotunda, planlaşdırmada, istehsalatın idarə olunmasında, məhsulların alınıb-satılmasında və s. kompüterlərdən çoxdan istifadə edilir. Lakin müasir biznes müəssisənin idarə olunmasında informasiya texnologiyalarından daha geniş və sistemli istifadə olunmasını tələb edir. Digər bütün sahələrdə olduğu kimi əczaçılıq sahəsində də kompüterləşmə, informasiya texnologiyalarından səmərəli istifadə hər zaman ön planda olmuşdur.

Əczaçılıq təşkilatlarının öz fəaliyyətləri zamanı informasiya texnologiyalarından geniş şəkildə istifadəsi yaşadığımız dövr üçün aktualdır. İnformasiya texnologiyalarının tətbiqi bizə aşağıdakı imkanları yaradır:

1. Dərman vasitələri haqqında informasiyanın alınması;
2. Uçot və hesabatın daha dəqiq aparılması;
3. İqtisadi göstəricilərin proqnozlaşdırılması;
4. Marketinq analizi;
5. Əczaçılıq bazarının mövcud vəziyyətinin öyrənilməsi;

DOI: https://doi.org/10.36719/2022/01/03

6. Aptek müəssisələrinin dərman vasitələri və tibbi təyinatlı mallarla təchizatının yaxşılaşdırılması;
7. Əczaçılıq təşkilatlarında çalışan mütəxəssislərin biliklərinin artırılması məqsədilə təkmilləşdirmə kursları və təlimlərin təşkili;
8. Müəssisənin fəaliyyəti ilə bağlı məlumatların ictimaiyyətə çatdırılması;
9. Əhaliyə daha keyfiyyətli əczaçılıq yardımının göstərilməsi;
10. Dərman vasitələrinin qəbulu zamanı yaranan arzuolunmaz halların aradan qaldırılması və farmakoloji nəzarətin həyata keçirilməsi üçün əhalidən elektron sorğuların qəbul edilməsi;
11. Əhaliyə dərman vasitələrindən səmərəli istifadə yollarının aşılanması və s.

Əczaçılıq sahəsində internet texnologiyalarının tətbiqi xüsusilə əhəmiyyətlidir. Belə ki, internet texnologiyalarının tətbiqi “elektron aptek”lərin yaranmasına səbəb olmuş, bu isə bir çox sahədə olduğu kimi əczaçılıq sahəsində də elektron ticarətin formalaşmasına gətirib çıxarmışdır. Demək olar ki, bir çox apteklər özlərinin internet-mağazalarını yaratmışdır. Bəzi apteklər internet vasitəsilə dərman vasitələrinin və tibbi təyinatlı malların həm ölkədaxili, həm də ölkəxarici realizasiyasını həyata keçirir, bu isə aptekin iqtisadi göstəricilərinə müsbət istiqamətdə təsir göstərir. Hazırda “elektron apteklər”in yaradılması məqsədilə müəssisələr tərəfindən veb-saytlara nəzərən, sosial şəbəkələrə daha çox üstünlük verilir.

Əczaçılıq təşkilatlarında informasiya texnologiyalarının fəal istifadə olunması elmi ədəbiyyata “telefarmasiya” termininin daxil olmasına səbəb olmuşdur. Telefarmasiya tele-səhiyyənin inkişaf etmiş formalarından biri olub, əczaçı ilə birbaşa təmasın olmadığı hallarda xəstələrə telekommunikasiya vasitələri ilə əczaçılıq xidmətinin göstərilməsidir. “Elektron apteklər”dən xəstə özünə lazım olan dərman və tibbi vasitələri əldə edə bilir, lakin bu zaman əczaçı ilə ünsiyyət qurulmur. Telefarmasiya

DOI: https://doi.org/10.36719/2022/01/03

əczaçı ilə xəstə arasında distant əlaqənin qurulmasına xidmət edir. Bu məqsədlə telekonfrans və ya videokonfranslardan geniş istifadə edilir.

Videokonfranslardan əczaçılıqda digər məqsədlər üçün də, məsələn, əczaçılara distant təhsil və təlimin verilməsi, idarəetmə xidmətlərinin göstərilməsi və s. istifadə edilir.

Artıq dünyanın bir çox ölkəsində əczaçılıq sahəsində daha müasir texnologiyaların istifadəsi müşahidə edilir. Belə texnologiyalara xüsusilə əczaçılıq sənayesində tətbiq olunmağa başlamış "süni intellekt" və robot texnologiyalarını misal göstərə bilərik.

İÇİNDƏKİLƏR

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

## HUMANITIES AND SOCIAL SCIENCES

**Səid Ələkbər oğlu Mirzəyev, Röya Mirtaleh qızı Mirtalıbova, Etibar Könül oğlu Babayev, Elvira Vüqar qızı Süleymanova**
"Öz müqəddəratını təyin etmək" hüququ – beynəlxalq-hüquqi termin kimi ................................................ 8
**Nəzirə Altay qızı Həsənova**
İşəgötürən tərəfindən cərimələrin tətbiqinin bəzi məsələlərinə dair ........................................................................................14

## TƏBİƏT ELMLƏRİ

## NATURAL SCIENCES

**Lalə İslah qızı Rüstəmova, Akif İrzaxan oğlu Qurbanov, Fəridə Hafiz qızı Heydərova, Şeyda Tələt qızı Şıxəliyeva, Svetlana Məmməd qızı Fərəcova, Tamilla İsrafil qızı Hacıyeva**
Bakı şəhərində vaksinasiya fonunda COVID-19 infeksiyası zamanı epidemik prosesin gediş xüsusiyyətləri ........................ 18
**Süleyman Mahmud oğlu Məmmədov, Nurlanə Musafəddin qızı Atakişiyeva, Zöhrə Həmid qızı Səfərova, Mehriban Akif qızı Talıbzadə**
Bakı şəhəri və onun rayonları üzrə 2021-ci il üçün uşaqlar arasında COVID-19-la yoluxma intensivliyinin müqayisəli təhlili ................................................................ 24
**Süleyman Mahmud oğlu Məmmədov, Nurlanə Musafəddin qızı Atakişiyeva, Zöhrə Həmid qızı Səfərova, Mehriban Akif qızı Talıbzadə**
2021-ci ildə Bakı şəhərinin rayonları üzrə COVID-19-la yoluxma intensivliyinin müqayisəli təhlili............................... 26

**Hüseyn Ceyhun oğlu Kazımzadə**
Əczaçılıqda informasiya texnologiyalarının tətbiqi. Telefarmasiya.............................................................................. 29

İmzalandı: 28.11.2022
Formatı: 60x84, 1/16
H/n həcmi: 2,125 ç.v.
Sifariş: 591

---

https://aem.az saytında çap olunub.
**Ünvan:** Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.,
“Azərbaycan” nəşriyyatı, 6-cı mərtəbə.
Tel.: +994 50 209 59 68
+994 55 209 59 68
+994 12 510 63 99
e-mail: info@aem.az